Martın 12-də təhsil naziri Misir Mərdanov İslam İnkişaf Bankının departament direktorunun müavini cənab Məhəmməd Rza Yusifxan, bankın baş mütəxəssisi Rauf Məmmədov, Azərbaycan üzrə nümayəndəsi Zaur Cəfərli ilə görüşüb.

Misir Mərdanov qonağa ölkəmizdə peşə təhsilinin inkişafı istiqamətində görülən işlər, təsdiq olunmuş Dövlət Proqramı, eyni zamanda yerli və beynəlxalq qurumlarla birgə bu sahədə həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Sonra nazir ölkəmizin texniki-peşə təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və inkişafı məqsədilə İslam İnkişaf Bankı ilə əməkdaşlığın yaradılması, həyata keçiriləcək yeni layihəyə əsasən bankdan texniki yardım və qrant ayrılması məsələsindən söz açıb. Eyni zamanda müvafiq layihə üzrə Bakı şəhərində 1, Saatlı rayonunda isə 2 peşə təhsili müəssisəsində iş aparılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb və müvafiq tələbatın öyrənilməsinin əsas şərt olduğunu vurğulayıb. Layihənin əsas məqsədinin texniki-peşə təhsili müəssisələrinin müasir əmək bazarının tələblərinə uyğunlaşdırılması olduğunu bildirən Misir Mərdanov bununla bağlı rəy və təkliflərini qeyd edib.

Nazir layihənin "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)"na uyğun olaraq həyata keçiriləcəyini açıqlayıb.

Cənab Məhəmməd Rza Yusifxan təmsil olunduğu qurumun öz fəaliyyətində təhsilin inkişafına xüsusi yer ayırdığını, nəzərdə tutulan layihəyə lazımi dəstək göstərməyə hazır olduqlarını bildirib. Qonaq, həmçinin layihənin maliyyələşdirilməsi və bir sıra mühüm istiqamətlərlə bağlı fikirlərini qeyd edib.

Görüşdə milli və beynəlxalq məsləhətçilərin layihə sənədini hazırlaması, nümunəvi peşə təhsili müəssisəsinin yaradılması, peşə məktəblərinin modelinin təkmilləşdirilməsi ilə bağlı müzakirə aparılıb.